# Novena

(9 gün duası)



Salesians of don Bosco

# 3 dəfə:

**Ey göylərdə Olan Atamız!**
Adın Müqəddəs tutulsun, Sənin Səltənətin gəlsin,
göydə olduğu kimi, yerdə də
Sənin iradən olsun. Gündəlik çörəyimizi
bizə bu gün ver; və bizə borclu olanları
bağışladığımız kimi,
bizim borclarımızı da bağışla.
Və bizi sınağa çəkmə, lakin bizi şərdən
xilas et. Çünki səltənət, qüdrət və izzət
əbədi olaraq Sənindir! Amin.

**Salam, mübarək Məryəm!**
Rəbb Səninlədir. Sən qadınlar arasında
bəxtiyarsan və Sənin bətninin Səmərəsi İsa
bəxtiyardır. Müqəddəs Məryəm, Allah Anası,
indi və ölüm saatımızda
biz günahkarlar üçün dua et. Amin.

**Ataya, Oğula və Müqəddəs Ruha**
indi də, həmişə də, əbədi olaraq da
həmd olsun. Amin.

**Qoy Ali Müqəddəs Ənamlar ***
Rəbbimiz İsa Məsihin həqiqi Bədəni və Qanı
hər zaman izzətləndirilsin.

# 3 dəfə:

†

**Salam, müqəddəs Mələkə**, Mərhəmət Anası,
Salam, həyatımız, sevincimiz və ümidimiz.
Səni çağırırıq, sürgündə Həvvanın övladları olan biz.
Bu göz yaşları vadisində ağlayaraq
Sənə ah-naləmizi göndəririk.
Ey Havadarımız, mərhəmət gözlərini bizə döndər,
Və bu sürgündən sonra
bətninin bəxtiyar səmərəsi - İsanı bizə göstər.
Ey mərhəmətli, ey lütfkar,
ey sevimli Bakirə Məryəm!

**Məryəm, Məsihçilərin Köməkçisi ***
bizim üçün dua et.

†

**Müqəddəs Bernardın duası**

Ey hər şeyə qarşı rəhmli olan Bakirə Məryəm xatırla ki, əsrlərdən bəri heç kim eşitməyib ki, sənə pənah aparanlardan, sənin köməyini istəyənlərdən, sənin himayəni axtaranlardan kimsə, sənin tərəfindən tərk edilib. Bu ümidlə dolaraq, həlimliklə və günahlarıma görə qüssə ilə sənə müraciət edirəm, ey Bakirə və Ana. Sözlərimə xor baxma, ey Əbədi Kəlamın Anası və xahişimi iltifatla dinlə. Amin.

**Dua edək:** Ey Külli-İxtiyar Əbədi Allah,
Səndən bütün kainat yaradılış və həyat alır.
Biz Sənə fəryad edirik və Sənin mərhəmətini çağırırıq, çünki bu gün yeni bir virusla qarşılaşdığımızda, biz yenidən bəşəriyyətin zəifliyinin şahidi olduq. İman edirik ki Sən, bəşər tarixinin axınını istiqamətləndirirsən və Sevgin vəziyyətimizə baxmayaraq taleyimizi yaxşılığa doğru dəyişə bilər.
Buna görə də, Oğlunun Pasxa sirri naminə xəstələrimizi və onların ailələrini Sənə əmanət edirik, Onların bədənlərinə və qəlblərinə Öz xilas və qurtuluşunu bəxş et
Cəmiyyətimizdəki hər kəsin qarşısına qoyulan tapşırığı yerinə yetirməyə kömək et, bizə həmrəylik və qarşılıqlı yardım ruhu göndər, həkimlərə və bütün tibb işçilərinə və eləcədə sosial işçilərə dayaq ol.
Sən insan əməyində təsəlli, xəstəliklərdə isə dayaqsan, Mübarək Bakirə Məryəmin və bütün müqəddəs həkimlərin və şəfa verənlərin vəsatətçiliyi ilə bütün pislikləri qov və düçar olduğumuz pandemiya xəstəliyindən bizi xilas et ki, sakitcə gündəlik vəzifələrimizə qayıda bilək, yenilənmiş ürəklərlə Səni tərənnüm edək və təriflər deyək.
Sənə güvənirik və bütün xahişlərimizi Rəbbimiz, Məsih vasitəsilə Sənə gətiririk. Amin